# AZƏRBAYCAN RESPUBLİKASI
# ŞABRAN RAYON
# İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
# SƏRƏNCAMI

**№** **2024-cü il**

**“Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rayonda kütləvi tədbirlərin keçirilməsi ilə əlaqədar yerlərin ayrılması barədə**

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair” 11.05.2005-ci il tarixli sərəncamına və “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uğun olaraq rayon ərazisində təbliğat xarakterli tədbirlərin keçirilməsi, müxtəlif görüşlərin, yığıncaqların, mitinqlərin təşkil edilməsində qayda yaratmaq, vətəndaşların sərbəst toplaşmaq barədə hüquqlarını təmin etmək məqsədilə

**Qərara alıram:**

1. Siyasi partiyalar, ictimai birliklər və digər şəxslərin müxtəlif səpkili tədbirlərin keçirilməsi barədə müraciətlərinə qanunla müəyyən edilmiş müddətlərdə baxılması təmin edilsin.

2. Rayon mərkəzində və ayrı-ayrı yaşayış məntəqələrində qapalı şəraitdə tədbirlərin keçirilməsi üçün 17 yer (330 yerlik Şabran şəhər Mədəniyyət Mərkəzinin toplantı salonu, Xəlfələr kənd kitabxanası, Günəşli kənd klubu, Dəvəçi kənd tam orta məktəbinin akt zalı, Xırdaoymaq kənd ibtidai məktəbinin akt zalı, Taxtalar kənd klubu, Pirəbədil kənd mədəniyyət evi, Pirəmsən kənd sənətkarlıq klubu, Zeyvə kənd klubu, Ağbaş kənd klubu, Çölquşçu kənd klubu, Rəhimli kənd tam orta məktəbin akt zalı, Padar kənd tam orta məktəbinin akt zalı, Aygünlü kənd klubu, Ağalıq kənd kitabxanası, Dağ Bilici kənd folklor evi, Gəndov kənd tibb məntəqəsinin iclas zalı), açıq şəraitdə keçiriləcək tədbirlər üçün 2 yer (Şabran şəhər idman meydançası-stadion, Əmirxanlı kənd idman meydançası) müəyyənləşdirilsin.

3. Rayonun aidiyyatı idarə, müəssisə, təşkilatlarına və Şabran Rayon İcra Hakimiyyəti başçısının İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliklərinə tapşırılsın ki, rayon İcra Hakimiyyəti başçısının bu sərəncamından irəli gələn məsələləri həll etsin.

4. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Asif Hüseynov**